Gəncə Dövlət Universiteti

# ALİ TƏHSİL SİSTEMİNDƏ QİYMƏTLƏNDİRMƏ KONSEPSİYASI

Rektor: Y.Ə.Yusibov

GDU Elmi Şurasının 28.12.2023-cü il tarixli iclasında (Pr. № 04) təsdiqlənmişdir.

GƏNCƏ - 2023

**Gəncə Dövlət Universiteti üzrə Ali təhsil sistemində qiymətləndirmə konsepsiyası "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"na,2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"na, 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"na, 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na və ARTN-nin (indiki ARETN) 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"yə, Gəncə Dövlət Universitetinin Nizamnaməsinə və digər normativ-hüquqi aktlara uyğun hazırlanaraq, Universitet Elmi Şurasının 28.12.2023-cü il tarixli (pr№ 04) iclasında müzakirə və təsdiq edilmişdir**

.

## Ali Təhsildə Qiymətləndirmə Konsepsiyası

### 1. Ümumi müddəalar

Azərbaycanın dünyəvi, demokratik və hüquqi dövlət kimi formalaşması və bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu bir şəraitdə onun təhsil sisteminin inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya edilməsi vacib proseslərdəndir. Bu inteqrasiya prosesi tələbə-müəllim mobilliyinin təmin olunmasını və qloballaşma şəraitindəki əmək bazarına müasir dünya görüşlü, savadlı və bacarıqlı mütəxəssislərin hazırlanmasını şərtləndirir. Bu səbəblə də, yüksək kvalifikasiyalı mütəxəssis hazırlığı aparılan zaman cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla, təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etmək üçün müvafiq addımlar atılmışdır. Bu səbəblə də, ölkəmizdə bütün təhsil sistemi daima dövlət qayğısı ilə əhatə olunur. Göstərilən qayğı nəticəsində xüsusi ilə ali təhsil müəssisələrində əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı mütəxəssis hazırlığı həyata keçirilməkdədir.

Həmçinin, bu inteqarasiya prosesində təhsilin keyfiyyətinin yüksəldilməsidə əsas işlərdən biridir. Təhsilin keyfiyyətinin yüksəldilməsi zamanı ilk növbədə təhsilin məzmunu, müəllim hazırlığı və qiymətləndirmə sistemləri çox böyük önəm daşıyır. Burada, əsas göstərici təhsilalanın təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran ən etibarlı iş hesab olunur. Bu da, ali təhsil müəssisələrində təlim və tədris prosesinin təkmilləşdirilməsini, universitet üzrə təhsilalanların nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsini, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsini və müasir qiymətləndirmə mexanizmlərinin yaradılmasını mühüm vəzifə kimi qarşıya qoyur. Gəncə Dövlət Universitetində bu amillər nəzərə alınaraq, təlim-tədris prosesində yeni qiymətləndirmə sisteminin hazırlanması prioritet məsələ kimi müəyyən olunmuşdur.

Qiymətləndirmə Konsepsiyası (bundan sonra - Konsepsiya) Universitetdə təhsildə qiymətləndirmə məsələləri ilə bağlı tədbirləri idarə etmək üçün nəzərdə tutulmuşdur. Sənədin əsas məzmunu qiymətləndirmə fəaliyyətinin qanuniliyini təmin edən prinsiplərin müəyyənləşdirilməsinə, bu fəaliyyətin aparıcı istiqamətlərinin təyin edilməsinə, qiymətləndirmə tədbirlərini həyata keçirən qurumların sosial statusunun gücləndirilməsinə, qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilməsinə yönəldilmişdir. Bu sənəd çərçivə sənədi kimi, Azərbaycan Respublikasının Təhsil Qanununun və dövlətin təhsil siyasətinə, qiymətləndirmənin müasir dünya standartlarına uyğun hazırlanmışdır və yeni qiymətləndirmə sisteminin prinsipləri üçün baza rolunu oynayır. Sənəddə Universitetdaxili qiymətləndirmənin əsas prinsipləri və fəaliyyət sahələri şərh edilir. Konsepsiyada qiymətləndirmə növlərinin hər birinin etibarlılığını və effektivliyini təmin etmək üçün dəqiq qaydalar və əsasnamələr formasında əlavə sənədlərin hazırlanması da nəzərdə tutulur.

Konsepsiya Universitetdə ali təhsilin müasirləşdirilməsi və yeniləşdirilməsi məqsədi ilə hazırlanmış təhsil proqramları ilə bilavasitə əlaqəlidir və onların tərkib hissəsini təşkil edir. Qiymətləndirmə mexanizmlərinin və vasitələrinin yaradılması ali təhsilin məzmun standartları və təhsil proqramları üçün növbəti mərhələlər hesab olunur.

### 2. Əsas anlayışlar

Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**təhsil krediti** – fənnin məzmununa və həcminə uyğun olaraq, onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahididir;

**akademik transkript** - tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri (saatları) və qiymətləri (rəqəm və (və ya) hərflərlə) özündə əks etdirən (xaricdə təhsil alanlar üçün mövcud qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcümə olunmuş) sənəddir;

**Avropa Kredit Transfer Sistemi (AKTS)** – təhsil proqramı ilə müəyyən olunmuş kompetensiyalara nail olmaq üçün tələbənin iş yükünü və təhsilalma istiqamətini müəyyənləşdirən sistemdir. Bu sistem, həmçinin tələbələrin mobilliyini təmin edir və təhsil proqramlarının dövlətlərarası müqayisəsi və tanınması prosedurlarını asanlaşdırır;

**prerekvizit fənlər** – tədrisi ilk növbədə zəruri olan fənlərdir;

**fənlər üzrə qeydiyyat** – tələbələrin təhsil müəssisəsinin və AMEA-nın müəyyən etdiyi qaydada fənləri seçmə prosedurudur;

**Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG)** – tələbənin təhsil proqramını mənimsəmə səviyyəsinin göstəricisidir. ÜOMG tələbənin tədris fəaliyyətini fəallaşdırmaq, özünənəzarət mexanizmini yaratmaq, tədrisdə əldə etdiyi nailiyyətlərini qiymətləndirmək məqsədi ilə tətbiq edilir;

**müvəffəqiyyətlə təhsil alan tələbə** - fərdi tədris planında qeyd olunan bütün fənlər üzrə müəyyən olunmuş kreditləri qazanan tələbədir;

**akademik borcu olan tələbə** - fərdi tədris planında qeyd olunan fənlərin ən azı birindən müəyyən olunmuş krediti qazana bilməyən tələbədir;

**tədrisə tam cəlb olunma (fulltime)** - ixtisasın təhsil proqramı ilə müəyyən olunmuş normativ təhsil müddətinə uyğun, tədris qrafiki ali təhsil müəssisəsi tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;

**tədrisə qismən cəlb olunma (parttime)** - ixtisasın tədris planına uyğun, hər semestrdə iki fəndən az olmamaqla, tədris qrafiki tələbə tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;

**cari qiymətləndirmə** - fənn üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsidir;

**aralıq qiymətləndirmə** - fənn üzrə tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsidir

**təcrübə** - tələbələrə və ya yeni məzunlara müəyyən müddət ərzində işdə və ya təşkilatda işləmək təcrübəsi qazanmağa imkan verən öyrənmə təcrübəsidir. Bu təcrübə tələbələrə nəzəri biliklərlə yanaşı, iş dünyasında praktiki bacarıqlar da verir. İş həyatında təcrübə keçməyin üstünlükləri arasında iş təcrübəsi qazanmaq, peşəkar bacarıqları inkişaf etdirmək, iş dünyasında əlaqələr qurmaq, real iş mühitini yaşamaq, potensial karyera imkanlarına qapı açmaq, biznesdə gözləntiləri anlamaq və onlara hazırlaşmaq daxildir.

**Buraxılış işinin müdafiəsi** – tələbələrin yekun dövlət attestasiyasının bir hissəsi olmaqla, həm də onların son attestasiyasıdır. Bu attestasiyanın nəticəsinə görə məzuna ixtisas dərəcəsi verilir.

**Dissertasiya işi müdafiəsi -** Magistrlik dissertasiyası elmi rəhbərin rəhbərliyi altında magistrantın müstəqil yerinə yetirdiyi elmi-tədqiqat (yaradıcılıq) və ya təcrübi-konstruktor işidir. Bu attestasiyanın nəticəsinə görə məzuna ali elmi-ixtisas dərəcəsi verilir.

Magistrant müdafiə üçün dissertasiyanın qısa məzmununu əks etdirən referat tərtib edilməlidir.

## 3. Müasir dövrdə qiymətləndirmə fəaliyyətinə qoyulan tələblər

Yeni qiymətləndirmə sistemi aşağıdakıları təmin edir:

- təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsini;
- təhsilin keyfiyyəti üçün əsas göstərici olan "təhsilalanın təlim nəticələri" haqqında etibarlı məlumat verilməsini;
- qiymətləndirmə vasitəsilə təhsilalanın bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra tədris proqramlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasını;
- təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyasını;
- qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə olaraq, məntiqi təfəkkür vərdişlərinin və bacarıqlarının inkişafına xidmət etməsini.

### 3.1 Təhsilalarların nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər

Hazırkı qiymətləndirmə sisteminin təhlili zamanı aşkara çıxarılan problem və nöqsanları aşağıdakı kimi qruplaşdırmaq olar:

- dəqiq müəyyənləşdirilmiş qiymətləndirmə standartlarının olmaması səbəbindən qiymətləndirmə prinsiplərinin pozulması;
- qiymətləndirmə üsul və vasitələrinin keyfiyyətlərinin təsvir olunmaması, onların əsas xüsusiyyətlərinin və meyarlarının dəqiqləşdirilməməsi;
- qiymətləndirmə vasitələrinin texniki keyfiyyətlərinə diqqət yetirilməməsi və qeyri-standart vasitələrdən istifadə olunması;
- qiymətləndirməyə və onun üsullarına müxtəlif yanaşmaların mövcudluğu şəraitində dəqiqləşdirmələrin vaxtaşırı aparılmaması;
- nailiyyətlərin qiymətləndirilməsi prosesində təhsilalanın fəaliyyətinin nəticələrinin obyektiv əsaslandırılmaması;
- müasir qiymətləndirmə metodlarından istifadə təcrübəsinin məhdudluğu, mütəxəssislərin bu sahədə hazırlıq səviyyəsinin aşağı olması;
- tədris proqramlarını hazırlayan və qiymətləndirmə fəaliyyəti ilə məşğul olan mütəxəssislər arasında qarşılıqlı əlaqənin yaradılmaması;
- inzibati prosedurların qeyri-şəffaflığı, qiymətləndirmə fəaliyyətinin qanuniliyinə zəmanətin verilməməsi;
- qiymətləndirmə nəticələrinin təhlilinin aparılmaması və müvafiq hesabatların hazırlanmaması.

Bu problemlərin uzun müddət həll edilməməsi Azərbaycanın təhsil sistemindəki qiymətləndirmə mexanizmində aşağıdakı xarakterik çatışmazlıqların da, yaranması ilə nəticələnmişdir:

- mövcud qiymətləndirmə mexanizmi təlim prosesinin ehtiyaclarına kifayətedici səviyyədə yönəlmir, onun tərkib hissəsinə çevrilmir və keyfiyyətinin yüksəldilməsinə xidmət etmir;
- bu mexanizm subyektiv xarakter daşıyır, təhsilalanı, bir qayda olaraq, əzbərləməyə və əksər tələbələri qiymət almaq xatirinə oxumağa təhrik edir;
- təlim prosesində yalnız formal biliklər qiymətləndirilir, çox hallarda məqsəd qiymət yazmaqla məhdudlaşır, təhsilalana özünüqiymətləndirmə imkanı verilmir;
- tədris zamanı müəllim qiymətləndirmə vasitəsilə təhsilalanlarla səmərəli əks-əlaqə yarada bilmir;
- mövcud qiymətləndirmə üsullarının məhdudluğu yeni təlim texnologiyalarının səmərəli tətbiqinə imkan vermir.

### 3.2. Konsepsiyanın yaradılması üçün zəruri səbəblər

Azərbaycanda nəzərdə tutulan təhsil və qiymətləndirmə siyasəti ümummilli maraqları əks etdirməklə yanaşı, əsaslı islahatyönümlü tədbirlərin həyata keçirilməsi zərurətini şərtləndirir. XXI əsrdə dünyada gedən siyasi, iqtisadi və sosial dəyişikliklər bilavasitə aşağıdakı konkret məqsədlərin reallaşdırılmasını tələb edir:

- idarəetmənin daha demokratik üsullarına keçilməsi;
- ölkədə açıq vətəndaş cəmiyyətinin qurulması;
- inkişaf etmiş ölkələrlə səmərəli əməkdaşlığın təmin edilməsi;
- beynəlxalq bazar münasibətlərinin və iqtisadi rəqabət şəraitinin yaradılması;
- milli özünəqayıdış hisslərinin aşılanması.

Hazırda bir çox ölkələrin təhsil sistemlərində yeni qiymətləndirmə modellərinin qurulması, təhsilalanların təhsil nailiyyətlərinin qeydiyyatının aparılması və təhsil pillələri üzrə buraxılış imtahanlarının təşkili ilə bağlı genişmiqyaslı islahatlar aparılır. Bunların əsas xarakterik xüsusiyyətləri aşağıdakı kimi səciyyələndirilir:

- qiymətləndirmə və təhsil siyasətində müasir yanaşmaların tətbiqi və inkişaf etdirilməsi, bununla əlaqədar vaxtı keçmiş mövcud üsullardan imtina edilməsi;

- imtahanların ədalətli və şəffaf keçirilməsi istiqamətində daha mütərəqqi üsulların seçilməsi;
- yeni qiymətləndirmə mexanizmlərinin tətbiqi üzrə təhsil sistemi çərçivəsində müvafiq təşkilatların yaradılması;
- yeni qiymətləndirmə sisteminin təşəkkülünə təhsil islahatlarının tərkib hissəsi, prioritet sahəsi kimi baxılması və onun müasir təhsil proqramlarının hazırlanması siyasəti ilə əlaqəli kontekstdə nəzərdə tutulması.

Qiymətləndirmə Konsepsiyasının hazırlanması bu məqsədləri reallaşdırmaq istiqamətində aşağıdakı fəaliyyətlərin həyata keçirilməsinə xidmət edir:
- qiymətləndirməyə və imtahan sistemlərinə yenidən baxmaqla, təhsil proqramlarında mütərəqqi dəyişikliklərin zəruriliyinin əsaslandırılmasını,
- sınaqdan çıxmış mexanizmlər vasitəsilə cəmiyyətdə müasir baxışların, mədəni dəyərlərin, yeni hüquq və vəzifələrin formalaşdırılmasını;
- yüksək rəqabət və bazar münasibətləri şəraitində milli mütəxəssislərin yetişdirilməsi üçün təhsil proqramlarına yeni fənlərin daxil edilməsini
- tədris proqramlarında əsas diqqətin praktik vərdişlərin aşılanmasına və problemlərin həllinə yönəldilməsini,
- bütün təhsilalanlar tərəfindən minimum standartların mənimsənilməsini;
- təhsil sisteminin səmərəli fəaliyyətini təmin edən Universitetdaxili qiymətləndirmə sisteminin yaradılması məqsədi ilə müasir məzmun standartlarına cavab verən yüksək keyfiyyətli qiymətləndirmə vasitələrinin hazırlanmasını;
- təhsil pillələri üzrə buraxılış imtahanları üçün müvafiq prosedurların daha ədalətli və şəffaf tətbiq edilməsini və bu məsələlərin tənzimlənməsi üçün normativ hüquqi bazanın yaradılmasını;
- təhsilin keyfiyyətinin idarə edilməsi, onun təşkilinin səmərəliliyinin artırılması və təsir dairəsinin genişləndirilməsi istiqamətində hökumətə və digər strukturlara kömək edən milli qiymətləndirmə sisteminin yaradılmasını;
- beynəlxalq qiymətləndirmə və müqayisəedilmə tədqiqatlarında ölkənin iştirakının təmin edilməsini.

### 3.3. Tələbə nailiyyətlərinin qiymətləndirilməsi sisteminin vəzifələri

Qiymətləndirmə sistemindəki islahatlar təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə olduğundan, yeni qiymətləndirmə sisteminin yaradılması prosesinin təhsil proqramı və müəllim hazırlığı sahəsində aparılan islahatlarla sıx əlaqəli şəkildə həyata keçirilməsi, dərslik və təlim materiallarının yaradılmasına yeni yanaşmaların formalaşdırılması ciddi vəzifələrdən hesab olunur. Bu istiqamətdə görülən işlər vasitəsilə aşağıdakıların reallaşdırılması nəzərdə tutulur:
- universitetdə təhsil proqramları ilə qiymətləndirmə fəaliyyətini bir-biri ilə əlaqələndirən sistemin yaradılması;
- qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilməsi;
- təhsilin keyfiyyəti haqqında obyektiv məlumatları əldə etmək məqsədi ilə səmərəli idarəetmə üçün universitetdaxili qiymətləndirmə sistemlərinin yaradılması;
- Universitetin beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirakının təmin edilməsi.

Bu məqsədlərə nail olunması üçün aşağıdakı strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir:
- tələbə nailiyyətlərinin qiymətləndirilməsi fəaliyyətinin uzunmüddətli strategiyasının, universitetdaxili qiymətləndirmə konsepsiyalarının işlənib hazırlanması;
- universitetdaxili qiymətləndirmənin, habelə yeni imtahan sisteminin yaradılması
- tələbə nailiyyətlərinin qiymətləndirilməsi üzrə beynəlxalq proqramlarda ölkənin iştirakının təmin edilməsi;
- tələbə nailiyyətlərinin qiymətləndirilməsi tədbirlərinin səmərəli təşkili üçün təlimatların, metodiki vəsaitlərin, idarəetmə və maddi-texniki təchizat planının hazırlanması;
- müvafiq qiymətləndirmə üsullarının və vasitələrinin yaradılması üzrə mütəxəssislərin hazırlanması, bu üsul və vasitələrin istifadəsi istiqamətində müəllimlərin təliminin təşkili;

- qiymətləndirmə nəticələrinin təhlilinin aparılması, hesabatların hazırlanması və universitetdə təhsilin keyfiyyətinin qiymətləndirilməsi sisteminin qurulması.

### 3.4. Tələbə nailiyyətlərinin qiymətləndirilməsinin əsas xüsusiyyətləri, komponentləri və prinsipləri

Fənlər üzrə təhsil standartlarının müəyyən edilməsində əsas məqsəd həmin standartların tələbə tərəfindən mənimsənilməsi istiqamətində hədəflərin təyin edilməsidir. Qəbul edilmiş standartlara uyğun bilik və bacarıqlara nail olmaq üçün tələbə fəaliyyəti fasiləsiz stimullaşdırılmalı, onların daha yüksək səviyyəli standartları mənimsəməsi üçün müvafiq şərait yaradılmalıdır. Optimal vəziyyətdə heç bir tələbənin tədris ili boyunca geri qalmasına imkan verilməməli, əksinə, hər bir tələbənin nailiyyəti diqqət mərkəzində olmalıdır. Bu baxımdan tələbə nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik və rəsmi olmayan prosesdir. Bu prosesdə müəllimlərin tələbələr arasında müşahidəsi, tələbələrin sərbəst işlərini yerinə yetirməsi və təqdimat hazırlaması, frontal sorğu, yazılı və şifahi cavabları vacibdir.

Düzgün həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin təhsilalanın tələbatına nə dərəcədə cavab verməsi, habelə təhsil proqramında, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə şərait yaradır.

Tələbə nailiyyətlərinin qiymətləndirilməsi təhsilalanın biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

- tələbənin nailiyyətinin (və ya geriləmələrinin) izlənilməsi (monitorinqi);
- təlim prosesində qərarların qəbulu;
- tələbənin təlim nəticələrinin qiymətləndirilməsi;
- təhsil proqramının qiymətləndirilməsi.

Qiymətləndirmə və təlim proseslərinə təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi baxılır. Sistemli proses olan qiymətləndirmə təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks-əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur:

- **qiymətləndirmə məlumatları**. Bunlara tələbələrin nailiyyətlərini və təlimə münasibətlərini, müəllimin hazırlıq səviyyəsini, təhsil proqramlarının xarakterik cəhətlərini, təlim resurslarının bölgüsünü əks etdirən məlumatlar və fəaliyyətlərin icra mexanizmləri daxildir;
- **məlumatların toplanması.** Bu proses testlərin keçirilməsi, tələbə tapşırıqlarının yoxlanılması, auditoriyada müsahibələrin aparılması, tələbələrin və müəllimlərin fəaliyyətlərinin müşahidəsi, qiymət cədvəlləri və digər sənədlərin təhlil edilməsi kimi üsullarla həyata keçirilir;
- **qiymətləndirmə nəticələri**. Həmin nəticələrdən tədris prosesinin planlaşdırılması və istiqamətləndirilməsi, qiymət ballarının hesablanması, müqayisələrin aparılması, təhsil sənədlərinin və lisenziyaların verilməsi, təhsilin bir pilləsindən digərinə keçilməsi, pedaqoji nəzəriyyələrin formalaşdırılması, təhsil siyasətinin qurulması və onun təsirliliyinin monitorinqinin aparılması, təlim resurslarının bölgüsü, təhsil proqramlarının və tədrisin keyfiyyətinin dəyərləndirilməsi zamanı istifadə olunur, eləcə də geniş ictimaiyyəti məlumatlandırmaq məqsədi daşıyır;
- **qiymətləndirmə standartları**. Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, tələbə nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətvermə prosesinin qanuniliyinə zəmanət verir;

**Tələbə nailiyyətlərinin qiymətləndirilməsində aşağıdakı əsas prinsiplərə riayət olunur:**

- **məqsədəuyğunluq**. Nəzərdə tutulmuş məqsədlə qiymətləndirmə arasında uzlaşma təmin olunur. Qiymətləndirmə əvvəlcədən planlaşdırılır, onun xidmət edəcəyi məqsədlər müəyyənləşdirilir, təhsilalan haqqında toplanılan zəruri məlumatların mahiyyəti, texniki keyfiyyəti və əsas xüsusiyyətləri göstərilir, məlumatların toplanılması və təhlili üsulları

seçilir, veriləcək qərarın mahiyyəti təsvir edilir. Qiymətləndirmənin nəticələri müəyyən olunmuş məqsədləri əks etdirir. Qəbul edilmiş qərarlar və toplanılmış məlumatlar arasında əlaqələrin şəffaflığı təmin edilir. Qiymətləndirmə prosedurları daxilən ardıcıl qurulur və vəhdət təşkil edir;

**- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi.** Müvafiq indikatorlar vasitəsilə təhsil imkanları haqqında aşağıdakı məlumatlar toplanır: auditoriyadaxili indikatorlar vasitəsilə - müəllimin peşəkarlıq səviyyəsi, təlimin məzmunu, irəliləyişlərin, qiymətləndirmələrin koordinasiya səviyyəsi, təlim üçün ayrılmış vaxt, tələbənin tələblərini ödəyən resurslar və tədris vasitələrinin keyfiyyəti;

- bilavasitə təhsil sistemi ilə bağlı indikatorlar vasitəsilə - dövlət standartları, tədris proqramları, adambaşına düşən təhsil xərcləri;

- digər indikatorlar vasitəsilə - məişət problemləri ilə bağlı məsələlər;

- **toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin edilməsi (validlik və relevantlıq).** Məlumatların keyfiyyəti qəbul edilmiş qərar və fəaliyyətlərin münasibliyinə təminat verir. Qiymətləndirmə məqsədləri real seçilir və ölçülə bilən xüsusiyyətlər qiymətləndirilir. Təhsilalanın nailiyyətləri ona yaradılmış imkan daxilində müəyyən sahədə yerinə yetirdiyi konkret tapşırığın səviyyəsinə görə qiymətləndirilir.

Qiymətləndirmə məqsədləri və nəzərdə tutulmuş müvafiq məlumatlar müxtəlif vaxtlarda istifadə edildikdə belə, eyni qərar verməyə imkan yaradır və kifayət qədər dayanıqlıdır.

- **qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq**. Məlumatların toplanılması prosesi, müəllimin istifadə etdiyi qiymətləndirmə meyarları və hətta onun özünün peşəkarlıq səviyyəsi şəffafdır və qiymətləndirmə tapşırıqlarında şablonların, fərziyyələrin, təhsilalanların diqqətini yayındıran digər məsələlərin istifadəsinə yol verilmir. Onlar tələbələrin maraqlarına və imkanlarına görə müxtəlif kontekstlərdə (etnik xüsusiyyətlər nəzərə alınmamaq şərtilə) qurulur. Sağlamlıq imkanları məhdud tələbələr üçün qiymətləndirmə tapşırıqları müvafiq qaydada uyğunlaşdırılır. Qiymət mükəmməl və düşünülmüş, məqsədəmüvafiq, tədris proqramlarına və digər normativ sənədlərə müvafiq verilir;

**-təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin edilməsi.** Nəticələr əsasında auditoriyadaxili fəaliyyətlər təşkil edilir, tədris proqramlarının hazırlanması və idarə edilməsi (təhsilin məzmun münasibliyinin tənzimlənməsi, məzmunda tələbə maraqlarının təmin edilməsi, arzuolunan təlim nəticələrinin mənimsənilməsi üçün fəaliyyətlərin və seçilmiş tapşırıqların səmərəliliyi, onların təhsilalan bacarıqlarının inkişafında əhəmiyyətinin təmin edilməsi) həyata keçirilir. Tələbə tədqiqatçılığının inkişaf etdirilməsi, onun idrak qabiliyyətlərinin qiymətləndirilməsi (müəyyən qanunauyğunluğun başa düşüldüyünü əks etdirən hissəni seçmək və ya sorğu keçirmək bacarığı, qavramanın təsdiqini əks etdirən şifahi, yazılı və ya təsviri tapşırıq nümunəsini yerinə yetirmək bacarığı, yerinə yetirilən tapşırıq nümunəsində tənqidi təhlil aparmaq bacarığı, digər tələbələrin yerinə yetirdiyi tapşırıq nümunələrində səmərəli tənqidi təhlil aparmaq bacarığı) aparılır.

Müəllim tərəfindən qiymətləndirmə meyarları əsasında müəyyən təlim mərhələsinin əvvəlində və sonunda təhsilalanın tədris proqramının mənimsənilməsi üzrə irəliləyiş səviyyəsi və digər nailiyyətləri barədə hesabatlar verilir.

## 4. Əsas qiymətləndirmə növləri

Ali təhsildə tələbələrin biliyinin qiymətləndirilməsi çoxballı sistem əsasında aparılır. Çoxballı sistem üzrə qiymətləndirmə iki mərhələdə aparılır.

**I mərhələ** - məşğələlər üzrə cari qiymətləndirmə (0-10 bal), sərbəst işlərə görə 10 bal, davamiyyətə görə 10 bal, cəmi 50 bal;

**II mərhələ** - aralıq qiymətləndirmə (semestr imtahanları) 50 bal;

Aralıq imtahanı üzrə minimum keçid balı 17, maksimum 50 baldır. Tələbənin cari və aralıq qiymətləndirmədən aldığı maksimum bal 100-dür. Qiymətin müvəffəq hesab edilməsi üçün tələbə iki mərhələ üzrə minimum 51 (34+17) bal toplamalıdır.

**Seminar** - Cari qiymətləndirmə zamanı seminar/praktik məşgələ və kollokviumlar üzrə maksimum 30 bal toplaya bilər. Bu zaman tələbənin topladığı ballar toplanılır, ədədi ortası tapılır və maksimum həddə vurularaq 10-a bölünməklə hesablanılır.

**Laboratoriya -** Cari qiymətləndirmə zamanı laborator məşgələ və kollokviumlar üzrə maksimum 30 bal toplaya bilər. Bu zaman tələbənin təhvil verdiyi laborator işləri planlaşdırılan laborator işlərinin sayına bölünərək ədədi ortası tapılır və maksimum həddə vurulmaqla hesablanılır. 4 saata 1 laborator işi nəzərdə tutulur.

Seminar və laborator məşğələlərinin hər ikisi nəzərdə tutularsa o halda maksimum bal hər bir məşğələ növü üçün 15 bal nəzərdə tutulur.

**Sərbəst işlər -** Universitetdaxili qaydaya əsasən hər tədris ilinin payız, yaz semestrlərin hər birinə tələbələrə 3 (üç) sərbəst iş təyin olunur və 10 bal nəzərdə tutulur;

- sərbəst işlər tələbələrin fərdi, komanda, qrup tapşırığı, təqdimat, layihə və s. formasında yerinə yetirilir;
- birinci və ikinci ayın hər biri üçün nəzərdə tutulan sərbəst işlər 3 (üç) bal, üçüncü aya görə isə 4 (dörd) bal ilə qiymətləndirilir (3+3+4=10);
- sərbəst işlər fənni tədris edən mühazirə, seminar (praktik) və ya laboratoriya müəllimi (müəllimlər) tərəfindən qəbul edilir;
- sərbəst işlərin qəbulu bir qayda olaraq, dərsdən kənar vaxtda aparılır;
- tələbələrin sərbəst işlərinə aid sənədləri ixtisas kafedralarında fənnin tədrisi başa çatdıqdan bir semestr sonrayadək saxlanılır.

**Davamiyyət –** tələbənin dərsə davamiyyəti üçün maksimum 10 bal nəzərdə tutulur. Semestr ərzində fənn (fənlər) üzrə nəzərdə tutulan saatların hər 10%-nə uyğun 1 bal tələbənin balından çıxılır.

Semestr ərzində fənn (fənlər) üzrə nəzərdə tutulan saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana (imtahanlara) buraxılmır. Həmin fənlər akademik borc hesab edilir.

İmtahanda (imtahanlarda) iştirak üzürlü səbəbdən iştirak etməyən tələbə üzürlü səbəb təqdim edərsə növdəti semestrin tədris məşğələləri başlanana qədər bir dəfə təkrar imtahana buraxılır.

Akademik borcu qalmış tələbə fənni ödənişli əsaslara yenidən dinləməli və təkrar imtahan verməlidir. Bu zaman alt qrupun təhsil haqqı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na uyğun olaraq ixtisas üzrə təhsil haqqı 60-a bölünərək götürülən fənnin kreditinə vurulmaqla hesablanır.

Semestr ərzində tələbəyə 40-dan çox kredit götürməyə icazə verilmir.

Məzmun standartlarının mənimsənilməsi istiqamətində əsasən aşağıdakı qiymətləndirmə növlərindən istifadə olunur və onların hər biri qeyd edilən müvafiq məsələlərə aydınlıq gətirmək məqsədi daşıyır:

**- cari qiymətləndirilmə.** Təhsilalanlar əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi? Tələbələr tədris edilmiş materialın hansı hissəsini bilir?

**- aralıq qiymətləndirmə.** Tələbələr verilmiş standart və ya standartlar qrupunda müəyyən edilmiş məqsədlərə nail olublarmı?

- qiymətləndirmənin bu növləri tələbələri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə edilməsinə yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edirlər;

Cari qiymətləndirmə tələbənin biliyini müəyyən edir və təlimin düzgün qurulmasında müəllimə köməklik göstərir. Təlim prosesində düzgün istiqamətləndirilmiş tələbə öyrənilmiş materialın təkrarına vaxt itirmir, həmçinin onun üçün başa düşülməyən və ya tanış olmayan material qalmır. Qiymətləndirmənin sualları bir-biri ilə elə əlaqələndirilib tənzimlənməlidir ki, onların bəziləri tələbənin hansı biliklərə malik olduğunu, digərləri isə yeni materialı

mənimsəmiş tələbələri müəyyən etsin. Əgər qiymətləndirilmə tələbələrin fəaliyyətini müqayisə etmək və ya sonrakı inkişafını qiymətləndirmək üçün ilkin məlumat bazasını yaratmaq məqsədi ilə istifadə olunursa, onda bu suallar əsas psixometrik tələblərə cavab verməlidir;

Tələbə irəliləyişlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir. Alternativ üsul və mənbələrdən istifadə və ya tələbənin daha irəliyə addım atması üçün ona əlavə impulsun verilməsi barədə ehtiyaclar müəyyənləşdirilir.

Qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi hər bir tələbənin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim yalnız belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün tələbələrin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən tələbələrin ehtiyaclarını öyrənərək, onlara əlavə köməklik göstərir. Bu mənada tələbələrin faktiki fəaliyyətinin nəticələri müəllim üçün real indikatorlara çevrilir.

Monitorinqlər müəyyən anlayışların mənimsənildiyini müşahidə etməklə və verilmiş tapşırıqları nəzərdən keçirməklə, yaxud daha formal qiymətləndirmə tipindən istifadə etməklə aparıla bilər. Monitorinqlərin hansı formada aparılmasından asılı olmayaraq, onlar müntəzəm xarakter daşımalıdır.

Növbəti mərhələdə monitorinq tələbələrin əldə etdiyi nailiyyətlərin mövcud standartlara uyğunluğunu öyrənmək məqsədi ilə aparılır.

Aralıq qiymətləndirmə standartların mənimsənilməsi istiqamətində tələbələrin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə növü mövzunun, bəhs və bölmənin, yaxud da tədris ilinin sonunda eyni qaydada həyata keçirilir. Aralıq qiymətləndirmənin ən mühüm cəhəti tələbələrin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır.

### 5. Qiymətləndirmə standartlarının və qiymətləndirmə vasitələrinin hazırlanması

Hər bir tədris proqramında fənlər və onların mənimsənilməsi üçün istifadə edilən strategiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi məqsədi ilə müvafiq qiymətləndirmə standartlarının nümunələrindən də istifadə olunur.

Qiymətləndirmə standartları tədris proqramının hansı səviyyədə reallaşdığını yoxlamaqla, baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir.

Qiymətləndirmə sxemləri qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl həyata keçirilməsinə imkan verir, tədrisin səmərəliliyi ilə bağlı müəllimləri faydalı məlumatlarla təmin edir və tələb edir ki, hər bir müəllim müvafiq şərtlər üzrə öz meyarlarını müəyyənləşdirsin. Qiymətləndirmə sxemləri tələbənin işini qiymətləndirmək üçün müəllimin sərf etdiyi vaxtı azaldır, keyfiyyət səviyyələri vasitəsilə müxtəlif qabiliyyətə malik tələbələrin təhsil aldığı kursları nəzərə almağa şərait yaradır.

Qiymətləndirmə vasitələri fəaliyyətin qiymətləndirilməsi zamanı istifadə edilən meyarlarla bağlı təhsilalanların məlumatlandırılmasını, onların işinin necə qiymətləndiriləcəyini və onlardan nələrin tələb olunduğunu aydın şəkildə göstərməklə, konkret məqsəd və tələbləri (meyarları) müəyyən edir. Bu meyarlar tələbə işlərinin keyfiyyətini daha yaxşı qiymətləndirməklə, təlim prosesində irəliləyişlərin qiymətləndirilməsi üçün çərçivə təyin edir, işlərin keyfiyyəti ilə bağlı əks tərəfə məlumat verilməsini təmin edir. Qiymətləndirmə zamanı yazılı, şifahi, test, yaradıcılıq tələb edən ixtisaslarda isə qabiliyyət üsullarından istifadə edilə bilər.

### 6. Universitetdaxili qiymətləndirmənin mahiyyəti və məzmunu

Yuxarıda göstərilən qiymətləndirmə növlərinə və qiymətləndirmə vasitələrinə əsaslanan universitetdaxili qiymətləndirmə aşağıdakı əsas komponentləri əhatə edir:

-tələbə nailiyyətlərinin və irəliləyişlərinin monitorinqi;

-tələbə fəaliyyətinin təlim standartlarına uyğunluğunun müəyyənləşdirilməsi.

## 6.1. Tələbə nailiyyətlərinin və irəliləyişlərinin monitorinqi sistemi

Tələbə nailiyyətləri və irəliləyişlərinin monitorinqi cari və aralıq qiymətləndirmə məqsədləri üçün universitet səviyyəsində müəllimlər və struktur rəhbərləri tərəfindən aşağıdakı mərhələlərlə həyata keçirilir:

- mövcud qiymətləndirmə normalarını və şifahi sorğular əsasında aparılan cari qiymətlərləndirmə qaydalarını təkmilləşdirmək məqsədi ilə həyata keçirilir;
- tələbənin ayrı-ayrı mövzu və bəhslərin mənimsənilməsi ilə bağlı fəaliyyəti barədə məlumat toplamaq məqsədi ilə müəllim tərəfindən müntəzəm, davamlı olaraq müşahidə və monitorinqlər vasitəsilə aparılır;
- mövzular və fəaliyyət tapşırıqları üzrə əvvəlcədən hazırlanmış qiymətləndirmə metodlarından və digər diskriptiv (təsviri) qiymətləndirmə üsullarından istifadə olunmaqla, tələbənin fəaliyyətini təsvir edir;
- semestr ərzində üç dəfədən az olmayaraq, tədris olunan mövzular üzrə müəllim tərəfindən hazırlanmış testlər və standartlaşdırılmış prosedurlar vasitəsilə tələbə nailiyyətlərinin bəhslər üzrə cari qiymətləndirilməsini (kollokvium) nəzərdə tutur;
- semestrlər üzrə mövcud aralıq qiymətləndirmələri təkmilləşdirmək məqsədi ilə ümumi monitorinqlərin davamı kimi müəllimlər və struktur rəhbərləri tərəfindən həyata keçirilir;
- yarımil ərzində keçilən tədris materialının mənimsənilməsi barədə tələbələrə ümumi məlumat vermək məqsədi ilə aparılır;
- qiymətləndirmə vasitələri (eyni çətinlik dərəcəli və müxtəlif variantlı testlər, suallar və digər tədris materialları) nümunələrə və müvafiq təlimatlara əsasən müəllimlər tərəfindən hazırlanır, universitet rəhbərliyi tərəfindən təsdiq edilir;
- aralıq qiymətləndirmə nəzarətçi və yoxlayıcılar cəlb edilməklə, yanvar və iyun aylarında xüsusi cədvəl əsasında aparılır;
- nəticələri təhlil olunur, hesabat verilir, tədris və təlim prosesinin təkmilləşdirilməsində ondan istifadə edilir.

## 6.2. Təcrübələrin qiymətləndirilməsi

İnternaturada iştirak edən tələbə internaturanın tələblərinə uyğun (Proqram əsasında) hesabat hazırlamalı və ixtisas kafedrasında yaradılmış komissiya qarşısında müdafiə etməlidir.

İnternaturadan tələbənin toplayacağı balın maksimum həddi 100-dür. İnternaturada üzrə qiymətləndirmə 2 mərhələdə aparılır.

I mərhələ - tələbənin internatura müddətində davamiyyətinə, ixtisaslar üzrə bölmələr əsasında (müqayisəli) hazırladığı hesabatların və qarşılıqlı dinlənilmiş nümunəvi dərslərin nəticələrinə, pedaqoji-psixoloji-metodiki araşdırılmasına qoyulan tələblərə müvafiq və şagird haqqında (tələbənin təhkim olunduğu sinif üzrə) hazırlanmış yekun hesabatın hazırlamasına görə 50 bal;

II mərhələ - tələbənin yekun hesabatının (əldə olunmuş nəticələr və təkliflər nəzərə alınmaqla) müdafiə etməsinə görə 50 bal;

I və II mərhələdən 51 və daha çox bal toplayan, hesabat yazan tələbə internaturadan müvəffəq qiymət almış hesab edilir.

İnternaturadan müvəffəq qiymət ala bilməyən, müdafiəyə buraxılmayan və ya müdafiədə iştirak etməyən tələbənin akademik borcu yaranır və yekun attestasiyadan keçməmiş hesab edilir. O, növbəti ildə internaturada yalnız ödənişli əsaslarla təkrar iştirak edərək, müvafiq prosedurları yenidən keçməlidir.

Təkrar internaturada iştirak üçün ödənişli əsaslarla ixtisas üzrə təhsil haqqının 60-a bölünərək internatura üçün müəyyən olunan kreditlərinə vurulması yolu ilə hesablanılır.

## 7. Yay semestrinin təşkili

Yay semestri aşağıdakı məqsədlərlə təşkil olunur:

7.1. akademik borcların ləğv edilməsi;

7.2. fənlərin prerekvizitliyi gözlənilməklə, humanitar fənlər bölümünə daxil olan və ali təhsil müəssisəsi və AMEA tərəfindən müəyyən edilən seçmə fənlərin kreditlərinin qazanılması;

7.3. müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsi;

7.4. ali təhsil müəssisəsinin təklif etdiyi ayrı-ayrı fənlər üzrə digər ali təhsil müəssisələrinin tələbələri və AMEA-nın magistratura səviyyəsinin tələbələrinə, həmçinin AMEA-nın təklif etdiyi ayrı-ayrı fənlər üzrə ali təhsil müəssisələrinin magistratura səviyyəsinin tələbələrinə müvafiq kreditlər qazanmasına şəraitin yaradılması;

7.5. Yay semestri yaz semestri başa çatdıqdan sonra təşkil olunur və onun başlanma müddəti Universitet tərəfindən müəyyən edilir. Yay semestrinin (nəzəri təlim və imtahanlar) müddəti 6 (altı) həftədir. İmtahan müddəti 1 (bir) həftədən artıq olmamaqla, yay semestrinin sonuncu həftəsində təşkil edilir.

7.6. Yay semestrində tələbənin götürdüyü fənlər üzrə kreditlərin cəmi 10-dan artıq olmamalıdır.

7.7. Yay semestri və imtahanlar növbəti semestrin başlanmasına 2 həftə qalanadək başa çatdırılır.

7.8. Yay semestrində üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələr üçün növbəti semestrin başlanğıcına qədər bir dəfə imtahan təşkil olunur.

7.9. Tələbə yay semestrində iştirakından asılı olmayaraq, payız semestri üçün öz fərdi tədris planını iyulun 5-dən 15-dək fakültəyə təqdim etməlidir və o, “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.3.1-ci yarımbəndində göstərilən müddətdə öz fərdi tədris planında müvafiq dəyişikliklər edə bilər.

7.10. Müvəffəqiyyət qazandığı fəndən qiymətini yüksəltmək məqsədi ilə tələbəyə yenidən imtahan verməyə icazə verilmir. Lakin o, qiymətini yüksəltmək üçün yay semestrində həmin fənni yenidən götürərək dinləməklə imtahan verir. Tələbə öz məqsədinə nail olmadıqda, onun əvvəl topladığı bal qüvvədə qalır.

7.11. “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.2.23-cü yarımbəndinin tələblərinə uyğun olaraq, imtahana buraxılmayan tələbə semestrdə fənn (fənlər) üzrə müəyyən edilmiş dərslərin 50 faizindən çoxunda iştirak etdiyi halda o, həmin fənni (fənləri) yay semestrində təkrar götürmək hüququna malikdir.

7.12. Universitetdə yay semestri könüllülük prinsipi ilə ödənişli əsaslarla həyata keçirilir.

7.13. Yay semestrində tələbənin fənn üzrə bir kreditinin ödənişi “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 4.3-cü bəndinin tələblərinə uyğun olaraq müəyyən edilir.

7.14. Yay semestrində fənn üzrə qrupda tələbələrin sayını Universitet imkanlarını nəzərə alaraq müəyyənləşdirir.

7.15. Yay semestrinə müəllimlər könüllü surətdə cəlb olunurlar. Bu zaman müəllimin fəaliyyətinin ödəniş məbləği saathesabı qaydada həyata keçirilir. Bundan əlavə müəllimlərə fənn üzrə qrupdan əldə olunan vəsaitin hesabına əlavə ödəniş verilir. Həmin ödənişin məbləği universitet tərəfindən müəyyənləşdirilir.

7.16. Yay semestrində əldə olunan vəsaitdən “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”n 3.4.12-ci yarımbəndində göstərilənlər istisna olmaqla, Universitet rektorunun əmri ilə bu işə cəlb olunan digər əməkdaşların əmək haqları ödənilir.

7.17. Universitet yay semestri təşkilatçılarının və müəllimlərinin ödəniş məbləğini öz maliyyə imkanlarına görə sərbəst müəyyən edir.

## 8. Yekun attestasiya

### 8.1. Bakalavriat səviyyəsi üzrə yekun attestasiya

Elm və Təhsil Nazirliyinin 30.07.2020-ci il tarixli F-354 saylı əmri ilə təsdiq edilmiş təhsil proqramları əsasında fəaliyyət göstərən 050501 Biologiya, 050504 Ekologiya, 050508 Kimya, 13.08.2020-ci il tarixli F-370 saylı əmri ilə təsdiq edilmiş təhsil proqramı əsasında fəaliyyət göstərən 050606 Ekologiya mühəndisliyi, 050618 Kimya mühəndisliyi, 28.08.2020-ci il tarixli F-386 saylı əmrləri ilə təsdiq edilmiş təhsil proqramları əsasında fəaliyyət göstərən 050809 Turizm bələdçiliyi və 050810 Turizm işinin təşkili ixtisaslarında tədris planı üzrə nəzərdə tutulan bütün növ sınaq attestasiyalarından müvəffəq qiymət almış şəxslər buraxılış işi yerinə yetirməlidir. Digər ixtisaslarda isə Yekun attestasiya nəzərdə tutulmur. Məzunlar yalnız təhsil proqramlarında nəzərdə tutulan kreditləri toplamalıdır.

Yekun Dövlət Attestasiyası ARTEN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”yə uyğun təşkil olunur. Yekun Dövlət Attestasiyasına tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr buraxılır.

**Buraxılış işinin müdafiəsi üzrə qiymətləndirmə** - buraxılış işini tam yerinə yetirən tələbə müdafiəyə buraxılır. Buraxılış işlərinin müdafiəsi hər tədris ilində ixtisas üzrə yaradılmış Yekun Dövlət Attestasiyas Komissiyası qarşısında təşkil olunur. Yekun Dövlət Attestasiyas Komissiyasının sədri Elm və Təhsil Naziriliyi tərəfindən, tərkibi isə rektorun əmri ilə təsdiq edilir.

Buraxılış işinin müdafiəsindən tələbənin toplayacağı balın maksimum həddi 100-dür. Buraxılış işi üzrə qiymətləndirmə 2 mərhələdə aparılır.

**I mərhələ** - tələbənin təhsil aldığı dövrdə bütün növ sınaq attestasiyaları üzrə yekun ümumi orta müvəffəqiyyət göstəricisi (bundan sonra -ÜOMG) hesablanır və 2-ə bölünür, bu zaman maksimum 50 bal nəzərdə tutulur;

**II mərhələ** - tələbənin buraxılış işini müdafiə etməsinə görə 50 bal;

I və II mərhələdən 51 və daha çox bal toplayan tələbə buraxılış işinin müdafiəsindən müvəffəq qiymət almış hesab edilir.

Ali təhsil müəssisələrində bakalavriat səviyyəsinin təhsil proqramlarında nəzərdə tutulan kreditləri toplamış və bakalavr ali ixtisas dərəcəsi almış şəxslərə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən dövlət nümunəli diplom verilir.

Bakalavriat səviyyəsini bu və ya digər səbəbdən başa vurmayan şəxslərə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada arayış verilir. Arayışın forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

Bakalavriat səviyyəsini bitirən şəxslər təhsillərini magistraturada davam etdirə bilərlər.

### 8.2. Magistratura səviyyəsi üzrə yekun attestasiya

Magistratura səviyyəsi üzrə yekun attestasiya Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”na əsasən tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr yekun attestasiyaya buraxılırlar.

Yekun attestasiya magistrlik dissertasiyasının müdafiəsi və ixtisas fənləri üzrə imtahanlardan ibarətdir. Magistrlik dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclaslarında aparılır.

Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

**Dissertasiya işinin müdafiəsi üzrə qiymətləndirmə** - dissertasiya işini tam yerinə yetirən tələbə müdafiəyə buraxılır. Dissertasiya işlərinin müdafiəsi hər tədris ilində ixtisas

üzrə yaradılmış İxtisaslaşdırılmış Elmi Şurada təşkil olunur. İxtisaslaşdırılmış Elmi Şuranın sədri Elm və Təhsil Naziriliyi tərəfindən, tərkibi isə rektorun əmri ilə təsdiq edilir.

Magistratura səviyyəsində bütün ixtisaslar üzrə yekun attestasiya məcburidir.

Magistrlik dissertasiyalarının müdafiəsi zamanı magistrantın biliyinin qiymətləndirilməsi sadə səs çoxluğu əsasında açıq səsvermə yolu ilə aparılır. Magistrlik dissertasiyasının müdafiəsi “qeyri-kafi”, “kafi”, “yaxşı”, “əla” qiymətlərlə qiymətləndirilir.

Ali təhsil müəssisələrində və AMEA-da magistratura səviyyəsinin təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş və magistr ali elmi-ixtisas dərəcəsi almış şəxslərə müəyyən olunmuş formada dövlət nümunəli diplom verilir.

Magistratura səviyyəsini bu və ya digər səbəbdən başa vurmayan şəxslərə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada arayış verilir. Arayışın forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

Magistratura səviyyəsini bitirən şəxslər təhsillərini doktoranturada davam etdirə bilərlər.